**UOT 94**

# SƏDR AİLƏSİNİN İRAQIN MÜASİR SİYASİ TARİXİNDƏ ROLU

**Samid BAĞIROV**[*]

***Açar sözlər:*** *İraq, Sədr, Nəcəf, şiə, ABŞ, Müqtəda Sədr, Parlamentar rejim.*

## Giriş

Sədr ailəsi İraqda nüfuzlu sülalələrdən biridir. Bu sülalənin rolunun araşdırılması İraqın Yaxın Şərq proseslərindəki mövqeyinə görə, həm də Sədr ailəsinin bu ölkədə kəsb etdiyi böyük əhəmiyyətə görədir. Ölkələrdə (hansı?) demokratik dəyərlər və azad rəqabət nə qədər formalaşmış olsa da, müxtəlif sülalələrin nüfuzu bir qisminə imtiyazlar verdiyi halda, digər qismi rəqabətdə zəif saxlayır. ABŞ-ın müdaxiləsindən sonrakı İraqda Həkim, Bərzani, Sədr, Çələbi və sair ailələr sülalə nüfuzundan yararlanaraq siyasi rəqabətdə önə keçə biliblər. Sədr ailəsində siyasi nüfuzla yanaşı dini nüfuzun olması və nümayəndələrinin dönməz siyasət yürütməsi onları İraqın əsas güc qütblərindən birinə çevirib. Belə ki, daxili güclərlə yanaşı, beynəlxalq güclər də onların üzərində hesab açmağı zəruri hesab edirlər.

Bu araşdırma Sədr ailəsinin ABŞ müdaxiləsindən öncəki mövqeyinin incələnməsindən başlayaraq, müdaxilədən sonrakı İraqda kəsb etdiyi rolunu açıqlayacaq, ailənin siyasi kursu və son illərdə İraqın parlament seçkilərində əldə etdiyi nailiyyətlərinin səbəbləri işıqlandıracaq.

## Sədrlər ABŞ müdaxiləsindən öncə

İraqın müasir siyasi tarixində mühüm rolu olan bır sıra ailələr və sülalələr var. Duleym, Şammarı, Zubeydi, Həkim, Bəhrul-Ülum, Xoi, Şirazi, Çələbi və Sədr sülalələri də bu qəbildəndir. Adıçəkilən ailələrin tanınması və sayılıb seçilməsi onların siyasi rəhbərliyi, dini nüfuzu, əsli-nəcabəti, maddi imkanları və sair xüsusiyyətlərinə görədir. Onların arasında Sədr ailəsi İraqın müasir siyasi tarixində mühüm rolu ilə digərlərindən seçilməkdədir.

Bu ailə vaxtilə Livanın Cəbəl-Amil bölgəsindən İraqa köçmüş din alimlərinin törəmələridir (nəslidir?). Ona görə onlara bəzən Amili də deyilir. Onların kökü şiələrin yeddinci imamı həzrət Musa Kazimə (745-799) çatır (9; 1429 h.q, 3). İraqdan əlavə, bu ailənin din alimlərinin bir qismi İranda, bir qismi isə Livanda yaşayıb yaradıblar. Hazırda da belədir. Sülalənin Sədr adlanması din alimi Sədruddin Musəvi Amilinin (1193-1264 h.q) adı ilə bağlıdır (11;1394 h.ş, 47). Sədr ailəsinə mənsub bir neçə din alimi müctəhid tutulunu qazanıb, eləcə də Nəcəf, Qum, İsfahan, Samirra və sair şəhərlərin dini mərkəzlərinə rəhbərlik ediblər.

Bu ailəni təmsil edən tanınmış şəxslərin İraqda birbaşa siyasi arenaya daxil olması ötən əsrin ortalarından başlayıb. Məhəmməd Həsən Sədr (1882-1956) 1948-ci ildə ölkənin baş naziri oldu. O, bu postda yalnız 5 ay qala bildi. Ondan sonra Sədr ailəsinin Seyid Məhəmməd Sədr (1943-1999), İmam Musa Sədr (1928-1978), Məhəmməd Baqir Sədr (1935-1980) və bu nəslin hazırda həyatda olan 47 yaşlı nümayəndəsi Müqtəda Sədrin fəaliyyətini müzakirə etmək olar.

Məhəmməd Həsən Sədr istisna olmaqla, ilk 3 şəxs ABŞ-ın 2003-cü ildə İraqa müdaxiləsindən öncə terrora məruz qalıblar. Dünyadan tez köçmələrinə baxmayaraq, onlar ölkədaxili siyasi-ictimai proseslərdə, İraqla bağlı bir sıra beynəlxalq münasibətlərin formalaşmasında mühüm addımlar atıblar.

Ayətullah Məhəmməd Sədr Nəcəf dini-elmi hövzəsinin aparıcı müəllimlərindən biri olmaqla yanaşı, mübarizə ruhiyyəsilə seçilirdi. O, Nəcəfdə və İraqın digər şəhərlərində sabiq diktator Səddam Hüseynin təzyiq siyasətlərinə baxmayaraq, din xadimlərindən nümayəndə seçərək müxtəlif şə-

[*]*AMEA akad.Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu, kiçik elmi işçi,*
*sami80@mail.ru*

hər və rayonlarda dini-ictimai ayinlərin təşkil edilməsi üçün ezam edirdi. Həmçinin siyasi və ictimai mövzuları əhatə edən əl-Huda məcəlləsini işə salmışdı. Məhəmməd Sədr müasir İraq tarixində cümə namazını təşkil edən ilk din alimi hesab edilir (10; 2004, 4).

Məhəmməd Sədr iki dəfə Bəəs rejimi tərəfindən həbs edilib. Baxmayaraq ki, doxsanıncı illərdə Məhəmməd Sədrin baxışları mülayimləşmişdi, amma doxsanıncı illərin sonunda yenidən o, Səddam Hüseynə və onun hökumətinə qarşı çıxış etməyə başladı. Həmin dövrdə İraqda din xadimlərinə cümə namazlarında Səddam Hüseynə dua etmək əmrinin verilməsinə baxmayaraq, Sədr bu işin doğru olmadığı haqda bəyanat verdi (1; 2003, 92). Məhəmməd Sədr 1999-cu ilin fevralında iki oğlu ilə birgə Nəcəfdə terrora məruz qaldı.

Sədr ailəsinin digər nümayəndəsi olan din alimi Məhəmməd Baqir Sədrin fikirlərini və fəaliyyət xəttini təkcə dini-elmi mərkəzlərdə deyil, İraqın siyasi tarixində də görmək olar. Məhəmməd Baqir Sədrin bəzi şagirdləri hazırda Nəcəf dini-elmi hövzəsinin tanınmış alimlərindən olmaqla yanaşı, həm də İraq və İran hökumətlərində mühüm rəsmi vəzifələrə yiyələnmiş şəxslərdirlər.

Məhəmməd Baqir Sədrin "Fəlsəfətuna" əsəri İraq və İranın dini elmi ocaqlarında fəlsəfəyə qarşı fobiyanın aradan qaldırılması istiqamətində cərəyan mühüm təkan verə bildisə, onun "İqtisaduna" adlı əsəri də islam qaydalarının tətbiq edildiyi bır sıra ölkələrdə iqtisadi nəzəriyyə və düşüncələrə mühüm təsir bağışladı.

Sədrin "Hizbud-Dəvət əl-İslamiyyə" partiyasını təsis etməsi onun İraqda siyasi arenaya ciddi müdaxiləsi hesab edilir. 1957-ci ildə təsis edilməsinə baxmayaraq, hələ də İraqda fəal siyasi fraksiyalardan biridir. Partiya ötən əsrin ortalarında kommunizm, sekulyarizm və ərəb millətçiliyi düşüncələrinə qarşı təbliğat məqsədilə yaransa da, tədricən İraqda şiə cinahını təmsil edən siyasi partiya kimi formalaşdı. Hazırda bu partiyanın sədri sabiq İraq baş naziri Nuri əl-Malikidir.

Sədr siyasi fəaliyyətin əleyhinə olan "Cəmaətul-Üləma" cəmiyyətinə üzv olan alimlərlə də əməkdaşlıq edirdi. Nəcəf din alimlərinin fəaliyyət dəsti-xəttinin əksinə olaraq, Sədr İranda şah rejiminə qarşı baş qaldıran etirazlara da dəstək verir, oradakı din alimlərilə də həmrəy olduğunu bildirirdi.

Məhəmməd Baqir Sədr fəal bacısı Bintul-Huda Sədrlə birgə 1980-ci ildə terrora məruz qaldı. Bu, Səddam Hüseyn hakimiyyəti və Bəəs rejiminə qarşı bəyanatlardan irəli gəlirdi. İraqda vətəndaşların Bəəs partiyasına qoşulmasını təşviq edən təbliğat kompaniyası aparılanda, o bu üzvlüyə qarşı "qadağan" bəyanatı vermişdi.

Sədr ailəsinin müsəlman dünyasında ən tanınmış nümayəndəsi Musa Sədrdir (1928-1978). O, təkcə İraq və İranda deyil, Suriya, Livan, Ərəbistan Yarımadası, Şimali Afrika ölkələri, müsəlman dünyasının sair mərkəzlərində, hətta Avropa və Amerikada da tanınır. İranda doğulsa da, Livana köçüb və bu ölkədə vətəndaş hərəkatlarına başçılıq edib. O, Liviyaya səfəri zamanı yoxa çıxıb. Liviyanın sabiq diktatoru Müəmmar Qəddafi (1942-2011) onun oğurlanması və ya ölümündə təqsirləndirilən əsas şəxsdir (12; 2, iyul 2012).

Bəzi tədqiqatçılar Musa Sədri ötən əsrdə şiə din alimlərinin arasında tolerantlıq, multikulturalizm, dinlərarası dialoq, məzhəblərarası dözümlülük və müsəlmanların birliyi istiqamətində ən çox addım atan alim kimi qələmə veriblər (17; 1392; 14).

Sədr ailəsinin müasir İraqın siyasi, ictimai və dini həyatında fəal rola malik olan nümayəndəsi hazırda ölkə parlamentində "əl-Əhrar" və ya "Sairun" adlı fraksiyanın lideri olan din alimi Müqtəda Sədrdir.

**Müqtəda Sədr və İraq hökuməti**

Müqtəda Sədr Səddam Hüseyn tərəfindən terror edilmiş Məhəmməd Sadiq Sədrin 4 oğlundan biri, həm də sabiq diktator tərəfindən terror edilmiş müctəhid Məhəmməd Baqir Sədrin əmisi oğlu və kürəkənidir. Bu və digər amillər onun İraqda inanclılar arasında nüfuzunu daha da artırıb.

Son 17 ildə İraqda hökumətlə ölkənin ən böyük dini qurum olan Nəcəf dini-elmi mərkəzinin müctəhidləri arasında siyasi-ictimai məsələlərdə ümumi həmahənglik, bəzən də əməkdaşlıq baş tut-

muşdur (formalaşıb). Amma nüfuzlu din alimi və siyasətçi Müqtəda Sədr sanki bu həmahəngliyi pozan və hökumətlə Nəcəf hövzəsinin həmrəyliyinə xələl gətirən bir şəxs kimi nəzərə çarpır. Hərçənd, Müqtəda Sədrin bu mövqeyi və rolu bütün zamanlara şamil edilməsə də, Ayətullah Sistaninin, həm də İran İslam Respublikasının dəstəklədiyi hökumətə qarşı çıxması şiə cinahları arasında ona düşmən qazandırmışdır.

Bu məqamda Sədrlə Sistaninin baxışlarını qısa formada müqayisə etmək lazımdır. İraqın hazırda ən nüfuzlu din alimi Ayətullah Sistaninin düşüncələrinin tam əksinə olaraq, Müqtəda Sədr düşünür ki, müctəhid və din alimi tərəfdarlarının və müqəllidlərinin təkcə dini-mənəvi deyil, siyasi və ictimai işləri zəminində də fəal olmalı və müdaxilə etməlidir. Sistani ABŞ müdaxiləsindən öncə siyasi məsələlərə müdaxilə etmədiyi kimi, 2003-cü ildən sonra da bu məziyyəti qoruyub saxlayıb və beləcə, İraqda mənəvi və nüfuz baxımından bir nömrəli şəxsə çevrilib. Müşahidələr göstərir ki, Sədrin nüfuzu əsasən mənsub olduğu ailəyə və ABŞ-a qarşı qorxmaz mövqeyinə görə, Sistaninin nüfuzu isə elmi və müctəhidlik dərəcəsinə görədir.

İraq hökumətinə dəstək verən, eyni zamanda ABŞ-ın işğalına qarşı silahlı mübarizəni icazəli bilməyən Ayətullah Sistani ilə gənc din alimi Müqtəda Sədrin arasında olan insidentlərin səbəbləri belə açıqlanır:

Müqtəda Sədr ABŞ müdaxiləsindən sonra ölkədə işğala qarşı hərəkətə keçməyən və siyasi fəallıq göstərməyən din alimlərini tənqid edirdi. O, bu məqamda əsas iradları Sistaniyə ünvanlayırdı. Çünki İraqın bu zamandakı din alimləri Sistani danışmadan danışmır və hörmət əlaməti olaraq, fikirlərini açıqlamırdılar. Gənc din alimi Müqtəda Sədr isə Sistaninin adını çəkməsə də, çıxışlarında dolayısı yolla, yetərli qədər şücaəti olmayan və "qeyri-iraqlı" deyərək tənqidlər ünvanlayırdı.

Sədrin Sistaninin dəsti-xətti ilə getməməsinin bir səbəbi də gənc din aliminin İraqda və şiə aləmindəki müctəhidliyi və dini-mərkəzliliyi ərəblərə qaytarmaq istəyidir (13; 27.08.2017). Sədrin bu istiqamətdə hərəkət etməsinin əlamətləri onun 2017-ci ildə körfəzdə yerləşən ərəb ölkələrinə səfəri zamanı görünməyə başladı. Belə ki, İranla Körfəz Əməkdaşlıq Şurasına üzv olan ərəb ölkələri arasında rəqabət daima millətçilik zəminində olduğu kimi, məzhəbçilik zəminində görünüb. "Ərəb baharı"ndan sonra bu rəqabət daha da artmağa başladı. Belə bir zamanda ərəb və şiə din alimi Sədrin körfəz ölkələrinə səfərində səmimi qarşılanması təəccüb doğurmaya bilməzdi. Bu səfərlər zamanı Sədrin İraqdakı mövqeyinin sərgilənməsi və önəmsənilməsi bunu göstərirdi ki, o, ərəblərin İraqdakı ümidlərindən biri ola bilər.

Sədrin İrana get-gəlini davam etdirməsinə, Səudiyyə Ərəbistanın şərqində və Bəhreyndə mərkəzi hökumətlərin şiələrlə bağlı siyasətini tənqid etməsinə baxmayaraq, ərəb ölkələri hələ də gənc alimi ümid fiqurlarından biri olaraq görür və şiə aləmində dini-elmi mərkəzliliyin tam şəkildə Qumdan Nəcəfə köçməsini onun timsalında görmək istəyirlər.

Sədrin atası 1998-ci ildə terrora qurban olduqdan sonra o da təqib edildi. O, İraqın müxtəlif şəhərlərində gizlənilirdi. Atasının ətrafındakı mübariz qüvvələri öz ətrafında görməyə can atırdı. Sonralar mübariz gənclərdən ibarət "Camaat Sədr Sani" adlı birləşməni ətrafına toplaya bilmişdi. ABŞ-ın İraqa müdaxiləsilə 30 yaşlı Sədrin qarşısındakı əsas maneə olan Səddam Hüseyn hakimiyyəti aradan götürülmüşdü. O, gənc mübarizləri ətrafına toplamaq üçün ABŞ-ın işğalının qəbuledilməzliyi və buna qarşı mübarizə şüarını durmadan dilinə gətirirdi. Sədr ABŞ müdaxiləsi əleyhinə kəskin çıxışları ilə İraqda şiə elitasının barışmaz qüvvələrini başına toplaya bildi. İraqın şiələr yaşayan bölgələrində tərəfdarı olan Sədr Bağdadın əs-Sədr rayonunda daha çox nüfuz əldə etdi. Həmin zamanda Müqtəda Sədri İraqda şiə din alimləri arasında ABŞ-a qarşı silahlı mübarizəyə qalxan yeganə din alimi hesab etmək olar. Təbii ki, bu dəsti-xətt Səddamdan sonrakı dövrdə şiə siyasi cinahlarının rəhbərlik etdiyi müvəqqəti hakimiyyətə və sonrakı hökumətlərə, o cümlədən Nuri əl-Malikiyə problemlər yaradırdı.

Onun tələblərinin başında vahid İraq, işğala son qoymaq, ölkənin suverenliyinin təmin edilməsi, ictimai və iqtisadi ədalətin təmin olunması dururdu. Sədr hərəkatı təkcə siyasi deyil, hərbi, ictimai, iqtisadi, beynəlxalq nüfuz, media və sair baxımdan təşkilatlanandan sonra İraqda haki-

miyyətə gələn Nuri əl-Maliki və Heydər əl-Abadi hökumətləri üçün əsas problemə çevrildi. (5; 3 tir 1393 h.ş,)

ABŞ müdaxiləsindən sonra yeni və müvəqqəti İraq hökumətinin qeyri-qanuni bildiyi silahlı birləşmələrdən biri də gənc din alimi Müqtəda Sədrin başçılıq etdiyi "Ceyşul-Məhdi" idi. "Mehdi Ordusu" ABŞ işğalına qarşı təmkinli mövqe sərgiləyən Nəcəf alimlərinin əksinə olaraq, 2003-2008-ci illərdə Kut, Nəcəf, Divaniyyə, əl-İmarə, Kərbəla, Bəsrə, Sədr şəhərləri kimi bölgələrdə ABŞ, Britaniya və İraq hökumətinin təhlükəsizlik qüvvələrinə qarşı döyüşlərə girdi. Amerikalı diplomat Pol Bremerin iddiasına görə, birləşmənin üzvlərinin sayı 2006-cı ildə 60 minə çatırdı (16;11,01, 2007). ABŞ müdaxiləsindən sonra rəsmi Vaşinqtonun Bağdadda ilk səfiri olmuş və bu ölkənin idarəçiliyini bir il müddətində öhdəsinə götürmüş P.Bremer İraqdakı təcrübələrini qeydə aldığı kitabında Müqtəda Sədri təhlükəli fiqur kimi qələmə verib (15; 2011; 47).

Sədrin başçılıq etdiyi "Mehdi Ordusu"nun ABŞ qüvvələri ilə ən şiddətli qarşıdurması əsasən 2004-cü ildə Sədr və Nəcəf şəhərlərində baş verdi. Bu zamanda hətta Nəcəfdə yerləşən həzrət Əlinin məqbərəsi də zərər gördü.

Müqtəda Sədr 2004-cü ildə çıxışlarının birində ABŞ-ın müdaxiləsini və diplomat Pol Bremerin İraqda formalaşdırdığı müvəqqəti hökumət haqda fikirlərini belə açıqlayır:

"İraqdakı yeni Hökumət Şurası çalışır ki gələcəkdə ölkədə tətbiq ediləcək demokratik qaydaların çərçivələrini təyin edib məhdudlaşdırsın. Bu şura necə də təəssüfləndirici bir komandadır?! Amerikalıların nümayəndəsi Pol Bremerin təyin etdiyi bu 25 nəfər onun meyli və istəyi ilə müəyyənləşiblər. Onlar əsla İraqın nümayəndəsi deyillər. Onlar İraq xalqı qarşısında məsuliyyət daşımırlar, yalnız Bremerə hesabat verir və yalnız onun sözünə qulaq asırlar... İşğalçılar seçkiləri daha tez keçirməlidirlər. Amerikalılar seçkilər üçün dəqiq bir tarix müəyyənləşdirmirlər. Bununla onlar gələcək seçkilərin taleyini özləri həll etmək istəyirlər. Məsələ bunda deyil ki, 25 şura üzvlərindən 13-ü şiədir. Əsas problem və əsas məsələ bundadır ki, onların hamısı işğalçılar tərəfindən təyin ediliblər (14; 16,10, 1391 h.ş).

"Mehdi Ordusu" 2005-2006-cı illərdə İraqın Samirra şəhərində iki imamın məqbərəsi partladılan zaman radikal sələfi qüvvələrindən ibarət olan "İraq İslam Dövləti"nə qarşı hərəkətə keçdi.

"İraq İslam dövləti" hazırda dünyada İŞİD kimi tanınan terror təşkilatının sabiq adı, onun hərbi və düşüncə baxımdan canlı qüvvəsini təmin edən əsas bazasıdır. 2001-ci ildə əl-Qaidənin İraq qolu olaraq təşkil edilən "Cəmaətut-Tovhid vəl-Cihad" 2006-cı ildə "İraq İslam Dövləti", 2013-cü ildə isə "İraq-Şam İslam Dövləti" adını götürdü. Samirradakı məqbərələrin partladılmasını İİD öhdəsinə götürdükdən sonra "Mehdi Ordusu" onlara və onların tərəfdarlarına qarşı intiqam əməliyyatlarına əl atdı. Samirrada məqbərələrin partladılması, Bağdad, Diyala, Nəcəf, Kərbəla və digər şəhərlərdə zəvvarlara qarşı törədilən terror aktları "Mehdi Ordusu"nu və digər şiə birləşmələri intiqam addımlarını atmağa vadar edirdi. Bu tendensiya İraqda məzhəb qarşıdurmasını daha da alovlandırdı. Ayətullah Sistani isə öz növbəsində ölkədə şiə elitasını intiqam almamağa və birliyi qorumağa çağırırdı.

2006-cı ildə "Mehdi Ordusu"nda parçalanmalar və ayrılmalar baş verdi. Əsasən İran tərəfindən dəstək almağa meyilli olan "Əsaib Əhlil-Haqq", "Hərəkətun-Nucəba", "Kətaib Hizbullah", "Ceyşul-Muxtar", "Fəzilət" və sair bölmələr ayrıldılar.

2007-ci ilin payızında "Mehdi Ordusu" digər nəcəfli din alimi Həkimin başçılıq etdiyi "İraqın İslami Ali Şurası"nın "Bədr ordusu" ilə qarşıdurmaya girdi. Daha sonra Müqtəda Sədrin şəxsi müdaxiləsi ilə sülh əldə edildi və "Mehdi Ordusu"nun fəaliyyəti altı aylıq dayandırıldı (3; 29 Avqust 2007,).

Müqtəda Sədrin siyasi ambisiyaları və iddiaları onu mərkəzi hökumətlə də silahlı toqquşmaya cəlb edirdi. Britaniyalılar 2008-ci ildə Bəsrəni tərk edəndə "Mehdi Ordusu" şəhəri nəzarətə aldı. Onlar məqsədlərinin Bəsrənin islam şəriəti qaydalarına əsasən idarə olunması olduğunu da gizlətmirdilər. Baş nazir Nuri əl-Maliki və ona dəstək verən digər şiə siyasi cinahları buna əks reaksiya verdilər. Bəsrədə baş qaldıran bir həftəlik silahlı insident çoxlu canlı tələfatla nəticələndi. On gün-

lük insidentdən sonra əldə edilən atəşkəs və anlaşmaya əsasən, Bəsrə hökumət qüvvələri tərəfindən idarə edilməyə başlandı. "Mehdi Ordusu" ləğv edilsə də tərki-silah edilmədi. Müqtəda Sədr isə bundan sonra rəsmi şəkildə siyasi fəaliyyətə başlaya bildi.

Ləğv edilən "Mehdi Ordusu"nun üzvləri 2014-cü ildə İraqda İŞİD terror təşkilatına qarşı Haşd-Şabi adlı "Xalq Səfərbər Qüvvələri"nin təşkil edilməsi zamanı "Səraya əs-Səlam" adı altında könüllü briqada kimi döyüşlərə qatıldı (6; 17 İsfənd 1393 h.ş).

**Sədr və İraq hökumətinin anti-terror proqramı**

Bəzi regional və beynəlxalq güclər bölgədə əsməkdə olan "Ərəb Baharı" "meh"inin İraqa da keçməsini istəyirdilər. Suriyada münaqişələr daxili müharibəyə çevrilən zaman İraqın əl-Ənbar əyalətinin sünnilər yaşayan bəzi şəhərlərində, xüsusilə də əl-Fəlluca şəhərində Nuri əl-Maliki hökumətinə qarşı aksiyalar başladı. İraqda hökumətin seçkilərin nəticəsi olaraq hakimiyyətə gəlməsinə baxmayaraq, bəzi beynəlxalq və regional güclər sözügedən aksiyalar vasitəsilə İraqa nüfuz etmək niyyətində idilər. İraq-Suriya sərhədlərinin nəzarətsiz qalması, bu nəzarətsizlikdən İraqdakı "İraq İslam Dövləti"nin hərbi və maddi baxımdan yararlanaraq güclənməsi, onların əl-Ənbar əyalətinin şəhərlərinə, Nineva əyalətinin inzibati mərkəzi Mosula qəfil hücumu, İraq Ordusunun bölgəni tərk etməsi ölkəni ciddi seçim qarşısında qoydu. Terrorçular Suriya və İraqda zəbt edilmiş ərazilərdə əvvəl "İraq Şam İslam Dövləti" (İŞİD) və daha sonra "İslam Dövləti" elan etdilər. Sözügedən aksiyaların keçirildiyi və iğtişaşların baş verdiyi bölgələr heç bir müqavimət olmadan İD-in nəzarətinə keçmiş və terror təşkilatının sosial bazası kimi formalaşmışdı.

Sədr bu zaman Nuri əl-Malikini bacarıqsızlıqda ittiham edirdi. Bundan savayı, Sədr əl-Malikini diktatorluq və korrupsiyada da günahlandırırdı (8;15,08,2016).

2014-cü ildə "İD"ə qarşı Sistaninin verdiyi cihad fətvası zamanı Müqtəda Sədr də "müqəddəs məkanların müdafiəsi" məzmunlu cihad fətvası verdi. Onun bu fətvasından sonra "Mehdi Ordusu"nun sabiq üzvləri "Səraya əs-Səlam" adı altında və əsasən şiə könüllülərin olduğu Haşd-Şabi (Xalq Səfərbər Qüvvələri) tərkibində İD-ə qarşı döyüşlərə qatıldı.

Sədr siyasi həyatında ani və gözlənilməz qərarlar verən siyasətçi kimi yadda qalıb. Ölkədə "Ərəb baharı" fonunda aksiyaların başladığı zamanda mübarizə dönəmində, onun bir neçə mərhələdə siyasətdən ayrılmaq, dini dərslərə qatılmaq və ya xeyriyyəçiliyə keçməklə bağlı bəyanatları əslində gənc siyasətçinin qərarsızlığından xəbər verirdi. O, 2014-cü ilin fevralında həyat fəaliyyəti haqda mühüm bəyanat verdi. O, bu bəyanatda rəsmən elan etdi ki tabeçiliyində olan bəzi təsisatlardan və onların işlərindən narazıdır, xeyriyyə işləri ilə məşğul olan qurumlar istisna olmaqla, nəzarətində olan bütün təsisatlar və dəftərxanaların işi dayandırılacaqdır. Həmin ilin avqust ayında Sədr Blokunun İraq parlamentindəki əl-Əhrar fraksiyasının məsul şəxsləri ondan öz fikrindən daşınmağı və ictimai-siyasi fəaliyyətə qayıtmağı istədilər. Bir sıra təkid və tələblərdən sonra o yenidən siyasətə qayıtdı. Onun siyasətə qayıtması İŞİD-in İraqda güclənməsinin ilk aylarına təsadüf edirdi.

Sədrin İraq hökumətilə daha bir qarşıdurması 2016-cı ilin mart-aprel aylarında baş verdi. O, bu dəfə İraqın bütün idarəçilik və siyasi sistemini hədəfə aldı. Bu məsələdə onun əsas etirazı ölkədə üç hakimiyyətin konfessiyalar və irqlər meyarı ilə bölünməsi ənənəsinə qarşı idi. O, ölkədə siyasi dəbə çevrilmiş prezidentlik kürsüsünün kürdlərə, baş nazirliyin şiələrə və parlament sədrliyinin sünnilərə verilməsi məsələsinə kəskin etiraz etdi. Bu məqamda onun etirazının daha bir səbəbi hökumətdə korrupsiya və iqtisadi qanun pozuntuları idi. Müqtəda Sədr "Xalqla əhd" adlı bəyanatında ölkənin yeni baş naziri Heydər əl-Abadi, prezident Fuad Məsum və parlament sədri Səlim əl-Cburi qarşısında ciddi tələblər irəli sürdü. Sədrin bu tələbi əsasən ondan ibarət idi ki, ölkədə 3 hakimiyyətin bölgüsü və hökumətin formalaşdırılması məzhəb, millətçilik, qohumbazlıq meyarlarına əsasən deyil, teknokrat hökumətin prinsiplərinə əsasən həyata keçirilməlidir (2; 2016, 22 mart).

Müqtədə Sədrin İraq hökumətinə ünvanladığı bu təhdidlər, tərəfdarlarının çoxluğuna görə öz təsirini göstərirdi. Onun tərəfdarları iki aya yaxın Bağdadda hökumət qərargahlarının yerləşdiyi "Yaşıl Zona"ya daxil olaraq parlament və nazirliklər qarşısında intensiv aksiyalar keçirdilər. Hətta

Müqtəda Sədrin özü də bir neçə gün parlament önündə qurulan etiraz düşərgələrində gecələməli oldu. O, bundan sonra verdiyi bəyanatlarda əl-Abadi hökumətini islahatları icra edə bilməməkdə ittiham etməyə başladı.

Digər şiə din alimlərilə müqayisədə Sədr İraqa, onun dövlətçiliyinə və təhlükəsizliyinə daha çox sadiq qaldığını isbat etməyə çalışırdı. İŞİD-lə mübarizə bitdikdən sonra Sədr Haşd-Şabi qüvvələri tərkibində olan "Səraya Səlam" hərbi briqadasının buraxıldığını elan etdi və bu yolla digər siyasətçiləri və din adamlarını da İraq dövlətçiliyinə xatir nəzarətindəki birləşmələri ləğv etməyə çağırdı. Sədr Haşd-Şabi qüvvələrinin İraq Silahlı Qüvvələri tərkibinə qatılması qanununu tez-tez dilə gətirir, nəzarətdən uzaq qalan silahlı birləşmələrin dərhal buraxılmasını tələb edirdi (7; www.moj.gov.iq).

Haşd-Şabinin təşkilinə zəmin yaradan əsas amilin İraqın böyük din alimi Sistaninin "kifai cihad fətvası" olduğuna və Haşd-Şabinin ləğv edilməsi barədə hələ rəsmi və dini göstərişin verilmədiyinə baxmayaraq, Sədr Haşd-Şabilə bağlı israrını davam etdirirdi (4; 2014, 13 iyun).

Sədrin fəallığı 2019-cu ilin parlament seçkilərində öz bəhrəsini verdi və onun rəhbərlik etdiyi "Sairun" siyasi cinahı parlament kürsülərinin yarıdan çoxunu əldə edə bilməsə də, 54-nə yiyələnməklə bütün rəqib partiyaları qabaqladı.

## ƏDƏBİYYAT


1. Adil Rauf, *Mərcəiyyətul-meydan*, səh-92, Mərkəzul-İraqi lil-İlam vəd-dirasat, Bağdad-2003.
2. Al-Jazeera.net, *Əs-Sadr yuraşşih əsma li-təşkil hukumat teknoktar*, 22,03, 2016, https://www.aljazeera.net/
3. BBC.Arabic, *Əs-Sədr yucammid nəşatat Ceyşal-mahdi*, 29,08,2007, http://news.bbc.co.uk/hi/arabic/middle_east_
4. Elaph.com, *Əs-Sistani yulin əl-cihad*, 13,06, 2014, https://elaph.com/Web/News/2014/6/913463.html
5. Ghatre.com, *Bərrəsiye təvane siyasi-nezamiye cərəyane Sədr dər Əraq*, 3 tir 1393 h.ş, https://www.ghatreh.com/news/nn48437356/
6. HawzahNews.com, *Moqtəda Sədr be nəbərde ba DAEŞ miayəd*, 17 İsfənd 1393 h.ş. http://hawzahnews.com/
7. İraq konstitusiyası, *Nass Qanun əl-Həşd əş-Şəbi*, https://www.moj.gov.iq/view.2899/
8. Javabna.com, *Seyyid Müqtəda Sədr yucibu*, 15.08.2016 http://jawabna.com/index.php/permalink/9675.html
9. Kazim əl-Hairi əl-Hüseyni, *Tərcümət həyat Seyid Muhəmməd Baqir Sədr* , səh-3, Darul-Bəşir, Qahirə 1429 h.q.
10. Məhəmməd əl-Muxtar bin Xəlil, *Ailətus-Sədr və dovrun yətəcəddəd*, al.Jazeera.com, 06.04.2004. https://web.archive.org/web/20180805225607/http://www.aljazeera.net:
11. Mohsen Kəmaliyan, *Məşahire Xandane Sədr*, İmam Musa Sədr Tədqiqat Müəssisəsi, səh-47, 1394 h.ş.
12. Musa Sədr Araşdırmalar Mərkəzinin saytı, *Xulasət qəziyyət ixfaul-imam*, iyul 2012, http://imamsadr.net/Home/index.php
13. Mustafa Kərkuti, *Ən-Nəcəf huvəl-əsl ləl-Qum*, əl-Həyat qəzeti, 27.08.2017 http://www.alhayat.com/
14. "Porsemane Daneşqahiyan" Araşdırmalar Mərkəzi, *Şəxsiyyət və dideqahhaye Moqtəda Sədr*, Tehran, 16,10, 1391 h.ş. http://siasi.porsemani.ir/node/1742
15. Pol Bremer, *Amu Qadiyyatihi fil-İraq və ən-Nidal li-binai Ğədin Mərcuv*, səh-47, Darul-Kitab əl-Ərəbi, Bağdad, 2011.

16. Vaşinqton Post, *Intensified Combat on Streets Likely*, 11,01, 2007http://www.washingtonpost.com/wpdyn/content/article/2007/01/10/AR2007011002581_pf.html?noredirect=on
17. Vəfayi Muğani, *Təbyin və təhlile məbaniye mərefətiye İmam Musa Sədr dər təqribe mosəlmanan və məsihiyan*, Mərifəte Ədyan məcəlləsi, say 17, 1392-ci h.ş ilin qışı.

## *РЕЗЮМЕ*

***Самид Багиров***

### *Роль семьи Садр в современной политической истории Ирака*

***Кючевые слова:*** *Ирак, Садр, Наджаф, шииты, США, Муктада Садр, парламентский режим*

За последние два столетия семейство Садра подарило региону и исламскому миру целую плеяду ученых. Авторитетные представители этой династии оставили значительный след в общественно-политической и религиозной жизни Ливана, Ирана, Ирака и прочих стран региона. Вхождение семейства Садра в политическую элиту в Ираке начинается со второй половины прошлого столетия. В этот период деятельность Мухаммеда Багира Садра в общественно-политическом и религиозном контексте и написанные им труды заложили основу фундаментальных принципов будущей деятельности династии. Предпринятые Мусой Садром с 70-х годов прошлого века шаги в направлении объединения исламского мира и религиозной толерантности завоевали еще больше авторитета вышеназванной семье на Ближнем Востоке. Политическая борьба Мухаммеда Садра в конце XX века, деятельность молодого религиозно-политического деятеля Мугтады Садра после интервенции США в 2003 году сделало семейство Садра одним из авторитетнейших династий Ирака. Если на первых порах Мугтада Садр и демонстрировал непримиримую позицию в политической жизни нового Ирака, то впоследствии, учредив партию и политическую фракцию, и сформировав союз с близкими политическими флангами, он обогнал всех партий-соперников на парламентских выборах 2019 года. В настоящее время, принятие важных политических решений в иракском парламенте и правительстве без согласия политического крыла Садра, удается с трудом.

**_SUMMARY_**

**_Samid Baghirov_**

**_The Role of the Sadr Family in the Modern Political History of Iraq_**

***Keywords:*** *Iraq, Sadr, Najaf, shiites, USA, Muqtada Sadr, parliamentary regime.*

Over the past two centuries, the Sadr family has given the region and the Islamic world a galaxy of scientists. Authoritative representatives of this dynasty left a significant mark in the socio-political and religious life of Lebanon, Iran, Iraq and other countries of the region. The entry of the Sadr family into the political elite in Iraq begins in the second half of the last century. During this period, the activities of Muhammed Baqir Sadr in the socio-political and religious context and the writings he wrote laid the foundation for the fundamental principles of the future activities of the dynasty. The steps taken by Musa Sadr in the direction of the unification of the Islamic world and religious tolerance since the 70s of the last century have gained even more prestige for the above-mentioned family in the Middle East. The political struggle of Muhammed Sadr at the end of the 20th century, the activities of the young religious and political activist Muqtada Sadr after the US intervention in 2003 made the Sadr family one of the most authoritative dynasties of Iraq. If at first Muqtada Sadr showed an irreconcilable position in the political life of the new Iraq, then later, having established a party and a political faction, and forming an alliance with close political flanks, he overtook all rival parties in the 2019 parliamentary elections. Currently, the adoption of important political decisions in the Iraqi parliament and government without the consent of the political wing of Sadr is difficult.